# MOLLA PƏNAH VAQİFİN YARADICILIĞINDA XƏLQİLİK İDEYASI

**İramin İsayev,**
*ADPU-nun Ümumi pedaqogika kafedrasının müdiri, professor*

***Açar sözlər:*** *xəlqilik, tərbiyə, vətənpərvərlik, Ana dili, xalqın yaradıcı qüvvəsi, inam, nikbinlik*

***Ключевые слова:*** *народность, воспитание, патриотизм, родной язык, сила народного творчества, вера, оптимизм*

***Key words:*** *nationality, upbringing, patriotism, native language, the strength of folk art, faith, optimism*

Molla Pənah Vaqifin vətən övladlarını xəlqilik ruhunda tərbiyə etmək arzusu, onların yüksək əqli inkişafa malik, saf mənəviyyatlı, humanist insanlar kimi görmək istəyi onun vətənpərvərliyə xüsusi önəm verməsi ilə şərtlənir. M.P. Vaqifə görə, xəlqilik xalqın yaradıcı qüvvəsinə inam, vətənin tərəqqisinə, ana torpağına, dilinə, dininə, mədəniyyətinə şüurlu sədaqət və məhəbbət ruhlu, gələcəyə nikbin baxışlı insan tərbiyə etməkdən ibarətdir. El-obasına, ana torpağını dərin məhəbbətlə sevən vətənpərvər şair bu nəcib hissləri insanlar arasında təbliğ və tərbiyə etməyi ön plana çəkir. Təsadüfi deyildir ki, "Görmədim" adlı müxəmməsində o, belə hisslərdən uzaq, özlərini xalqın dərdlərinə şərik kimi göstərən, əslində isə dünya malı, var-dövlət yığmaqdan həzz alan, saxtakar, eqoist, mənsəbpərəst insanları kəskin tənqid edir, onların daxili eybəcərliklərini ifşa edir. Vaqifə görə xəlqiliyin ən ümdə göstəricisi vətənpərvərlikdir.

M.P. Vaqifin yüksək əxlaqi keyfiyyətlərə malik vətənpərvər bir şəxsiyyət olması, onu müasirlərindən fərqləndirir. Ölkənin dar günündə çətinliklərə sinə gərmək, qələmini nizəyə çevirmək, sözün gücü ilə daxili və xarici düşmənlərin sinəsinə dağ çəkmək, vətənin mənafeyini hər şeydən üstün tutmaq, əzab və məhrumiyyətlərə dözmək, ictimai fikir nümayəndəsi kimi Vaqifin mənəvi-əxlaqi keyfiyyətini aşkara çıxarır. Vətəndaşlıq duyğusu, xalq məişəti və təfəkkürünün tərənnümü, nəhayət, mənəvi saflığı və cəsarəti Vaqifi öz dövründə çox məşhurlaşdırmışdır.

Şair öz seirlərində Azərbaycanın, yaşadığı vətən torpağının toponimikasını, həyati-coğrafi strukturunu bədii dillə, elə rəngarəng lövhələrlə cızır ki, ana yurdun əsrarəngiz gözəlliyi oxucunun gözü qarşısında canlanır. Oxucu vətən torpağının gözəlliklərinə məftun olur. Vətənə bağlılığını, məhəbbətini "Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim" misraları ilə başlanan şeirində aydın ifadə edir. Səmimi duyğularını ilhama gətirən ana yurdu olan Qazağı gülüstana bənzədir:

*Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim,*
*Ayaq üstən Qazağa bir gedib, gördüm vətən, gəldim,*
*Qızıl gül açılan günlərdə gülzari – Qarabağa*
*Sənin olsun, əzizim, böylə məlumun ki, mən gəldim.*
*Mən idim abi-yari bu gülüstanın əzəl gündən,*
*Yetirdim təzəcə güllər, gənə mən tazədən gəldim.*
*Xəyalın mühlik azari məni az qaldı öldürsün.*
*Qayıtdım rəhküzari-qəbrdən, yırtdım kəfən, gəldim [4, 158].*

Öz kəndini, onun "gülüstan" təbiətini sonsuz məhəbbətlə sevən Vaqif müharibələr nəticəsində gözəl təbiətə malik el-obasının viran olmasına acıyır. Çünki gerilik və səfalət hörümçək toru kimi xalqı bürüyüb. Ana yurdunun bu vəziyyətini görüb şair sıxıntılar keçirir, həyəcanlanır. O, öz hiss və həyəcanlarını "Kür qırağının əcəb seyrangahı var" misraları ilə başlanan, vətənpərvərlik hissləri aşılayan şeirlə aydın ifadə edir:

*Qış günü qışlağı Qıraq basanın,*
*Gözüdür Aranın, cümlə-cahanın,*
*Belə gözəl yerin, gözəl məkanın*
*Bir gözəl obası heyif ki, yoxdur! [5, 83].*

İdrakı sönük başçıların, cahil xanların düşünülməmiş siyasətinin nəticəsində xarabazara çevrilmiş kəndləri görəndə şairin ürəyi ağrıyır, qəm-qüssəyə batır, yoxsul həyat keçirən kəndli qadınlarının halına acıyır. "Çinü Maçində belə ələ düşməz, həyalı, ismətli bu el gözəllərinin" "bəzəyinin", "libasının" olmaması, onların olduqca yoxsul yaşaması şairi düşündürür, gözəl yerlərin mərd insanlarını həm də mədəni və varlı görmək istəyir.

Vaqifin bu qəbildən olan şeirlərində həm də dini fanatizmin hökm sürdüyü, müharibələr meydanına çevrilmiş qara günlü vətənində maarif və mədəniyyətin qayğısına qalınmadığından şikayəti aydın hiss edilir. Hətta iş o yerə çatıbdır ki, gözəl kənd qızları və gəlinləri özlərinə sığal, bəzək vurmağı belə unudublar, qadınlıq ədasını itiriblər.

*Bu diyarda kalağay yox, kətan yox,*
*Sinəm buta, müjgan oxun atan yox.*
*...Bəzək bilməz bu diyarın göyçəyi,*
*Tanımaz al çarqat, zərin ləçəyi [5,18].*

Gözəllikdə başqa yerlərin gözəllərindən fərqlənməyən vətən qızlarının yoxsulluğu, maddi imkansızlıqları vətənpərvər şairi təəssüfləndirir. Sanki təbiətən gözəl olan vətən torpağını al qumaşa bəzəmək, vətən övladlarını da təbiətin gözəlliklərini duyan insanlar kimi görmək istəyir. Çünki, insan və təbiət gözəlliyindən həzz almaq vətənpərvər şairin həyat amalı idi. O, təbiəti insanlarsız və əksinə təsəvvür etmirdi. Təbiətlə insanın vəhdəti şairi ilhama gətirdiyi kimi bunlar arasında uyğunsuzluq yuxarıda göstərdiyimiz kimi onun təəssüfünə səbəb olurdu. Bu isə vətənpərvərliyin ən yüksək təcəssümü idi. Təsadüfi deyildir ki, insan və təbiət gözəlliklərinin tərənnümü onun əksər şeirlərinin ideya istiqamətini təşkil edir. Bu şeirlər indi də oxucuda vətən və insanlara məhəbbət hissi alovlandıran mühüm vasitədir.

Bütün bu deyilənlər öz dövrünün və onun əxlaq normalarının tənqidinə dair Vaqifin fikirlərini aşağıdakı kimi ümumiləşdirməyə imkan verir:

*Bu elə dövrdür ki, namusluluq və haqpərəstlik insanı dilənçi kökünə salır (V.Q. Belinski). Alilər zillətdə, əziyyətdə, alçaqlar, satqınlar, yalançı və riyakarlar "kef" içərisində yaşayır, "sahibi-zərdə kərəm yoxdur, kərəm əhlində zər". Sahibi-zər əhlində qeyrət, namus, ar kimi insani keyfiyyətlər yoxdur, onların amalı var-dövlət toplamaq, taxt-taca sahib olmaqdır. Belələrinə vətən torpağı, vətən övladı öz məqsədləri üçün lazımdır. Taxt-tac, var-dövlət hərisliyi onlardakı ali hissləri öldürmüş, onların mənəviyyatını pozmuşdur. Deməli, belə cəmiyyətdə zəhmətkeş insanın qədir-qiyməti yoxdur, əksinə fırıldaqçılar, ikiüzlülər, yalançılar haqq qazanırlar.

*Vətən, xalq naminə görülən hər bir xeyirxah iş gözə görünmür, hesaba alınmır. Bu elə mühitdir ki, qara daşı döndərib "yaqut-əhmər", "daneyi-xarmöhreni dürrə bərabər" eyləsən belə "qədrü-qiymət" verən yoxdur. Əksinə "gizbu böhtandan savay"ı bəxşiş ola bilməz.

*Xəyanətkarlığın, ədalətsizliyin, ləyaqətsizliyin, qanunsuzluğun, özbaşınalığın hökm sürdüyü bu zəmanədə hər şey pulla həll edilir, var-dövlət, şəxsi mənfəət hissi insanların mənəviyyatına ağır zərbə vurur. Buna görə də Vaqifin fikrincə, belə bir zəmanədən "həzər" etmək, mühitin təsiri ilə insanlarda özünü göstərən mənfi əxlaqi sifətlərə qarşı amansız olmaq, yetişən nəsli ali və müqəddəs mənəvi hisslər ruhunda tərbiyə etmək lazımdır.

Xəlqiliyin mühüm tərkib hissələrindən biri Vaqifə görə ana dili və onu sevməkdir. Bu xüsusda dilin saflığını təmin etmək, zənginləşdirmək onun düşüncəsində aparıcı meyarlardandır. Vaqifin həyatın şirinliyini, gözəlliyin hüsnünü və real varlığa incə tellərlə bağlılığını tərənnüm edən nikbin poeziyasında ana dilinin musiqidən xoş sədası, şeirdən də incə məlahəti çox qürurlu səslənmişdir [2, 95].

M.P. Vaqif ana dili və onun tədrisi haqqında elmi-nəzəri mülahizələr irəli sürməsə də, yazmış olduğu şeirlərinin tədqiqi və təhlilindən aydın olur ki, o, şeiri xalqın başa düşəcəyi tərzdə, daha doğrusu, ana dilində yazmağı ön plana çəkərək onu insanların şüuruna təsir edən qüvvətli vasitə kimi yüksək qiymətləndirmişdir. Xalqın yaradıcılıq qüvvəsinə dərin inam və məhəbbət bəsləyən vətənpərvər şair əqli qabiliyyətlərin inkişaf etdirilməsi üçün təlimin ana dilində aparılmasını irəli sürmüşdür. Bu tələbi öz yaradıcılığı ilə sübut edərək başqalarına da nümunə göstərmişdir. Belə ki, geniş xalq kütlələri ilə danışmaq üçün ana dilində yazmağı zəruri hesab etmişdir. Təsadüfi deyildir ki, onun yazdığı şeirlərdə Azərbaycan dilinə məxsus təbiilik, aydınlıq, gözəllik, obrazlılıq, axıcılıq öz ifadəsini tapır.

M.P. Vaqif xalq yaradıcılığına, ümumxalq dilinə şüurlu yanaşaraq dilimizin zəngin xəzinəsindən incə mənalı ifadələri, gözəl və obrazlı sözləri diqqətlə seçib ədəbi dilimizə gətirməyə çalışmışdır. Özünəqədərki klassik ənənələrin çərçivəsindən kənara çıxaraq adi danışıqdan, sadə ifadə tərzindən məharətlə istifadə edərək ana dilində Azərbaycan xalq poeziyasının orijinal nümunələrini yaratmışdır. Dilimizin xalq ruhunun təmizliyini, sadə və aydınlığını, varlığını sübut etməyə çalışmışdır. Bu da Vaqifin xalq yaradıcılığı nümunələrinə, danışıq dilinə dərin bələdliyindən və xalqa olan məhəbbətindən irəli gəlir. O, irəli sürdüyü hər hansı bir ideyanı nəinki tək savadlı adamlara, eyni zamanda bütünlüklə xalq kütlələrinə daha asan yolla çatdırmaq məqsədi güddüyündən xalq danışıq dilinə daha böyük əhəmiyyət vermiş, xalqla öz dilində - doğma ana dilində danışmağı üstün tutmuşdur. Şeirlərində o, sanki xalqın özü danışır, onun varlığı və mənəviyyatı səslənir. Bu səbəbdən də Vaqifin qoşmalarında çətin anlaşılan, geniş izaha ehtiyacı olan beytlər, bəndlər yoxdur, onlar sadədir, təbiidir, aydındır, canlı və obrazlıdır. Onun şeirlərində Azərbaycan təbiətinin əlvanlığı, xalqımızın ruhu, xarakteri, dilinin təravəti və musiqisi duyulur.

Vaqifin dili mənalı və çox anlaşıqlıdır. Onun sözü, ifadə və cümlələri sadə olduğu qədər də təbii və şirindir. Bu isə xəlqiliyin gözəl təcəssümüdür. Vaqifə görə xalqın həyat və məişətinə aid olan, onun ruhunu oxşayıb hiss və duyğularını sevinc və kədərini ifadə edən hər bir söz gözəl və qiymətli olmaqla onun təsir gücü daha yüksəkdir. Vaqif fars və ya ərəb ifadələrini tətbiq etməkdən xeyli çəkinmiş, xalqın asanlıqla başa düşdüyü təmiz Azərbaycan dilində yazmışdır. Onun səmimi dildə yazılmış şeirləri Azərbaycan xalq poeziyasının orijinal nümunələri kimi insanı valeh edir.

Şeirlərində misralar öz səlistliyi, məntiqi quruluşu ilə oxucunun diqqətini cəlb edir. Bu da şeirin həvəslə, asanlıqla oxunmasına, tez əzbərlənib, mənasının aydın başa düşülməsinə, uzun müddət yadda saxlanmasına səbəb olur. Məsələn:

*Arzum budur, gözüm tikəm gözünə,*
*Danışarsan, qulaq verəm sözünə.*
*Ta ölüncə baxım günəş üzünə.*
*Arzum canda qalıb, doyan deyiləm [4, 51].*

Buradan aydın olduğu kimi, Azərbaycan dilinin poetik gözəlliklərini və qüdrətini parlaq şəkildə nümayiş etdirən şair, xalq dilinin qanun-qaydalarından kənara çıxmamış və bir dənə də olsun yersiz, artıq söz işlətməmişdir. Bu da səbəbsiz deyil, Vaqif də yaxşı başa düşürdü ki, "millətin ümdə yükünü təşkil edən şey dildir" (M.Ə. Rəsulzadə). Dil hər bir heyətin hansı bəşər dəstəsinə mənsub olduğunu göstərən bir lövhədir. Dil xalqın ən qiymətli neməti, tükənməz mədəniyyət xəzinəsidir. Dil zəngin bir xəzinənin – insan mənəviyyatının açarıdır.

Xəlqiliyin mühüm göstəricisi kimi yüksək dəyər verdiyi nikbinlik, yüksək dünyəvilik, gələcəyə inam Vaqif poeziyasının ən mühüm istiqamətlərindəndir. Vaqif nikbinliyi iki mənbədən nəşət edir. Bu mənbələrdən ən mühümü xalq yaradıcılığıdır. İkincisi, şairin o zamankı mübarizədə tutduğu mövqe, həyata, mübarizəyə münasibətdir [1, 563].

Şair nikbin əxlaqi görüşlərini gözəllərin şəninə tərif deyəndə ifadə etsə də, bu onun ümumi dünyabaxışının başlıca təzahürüdür, "gözəl durub, gözəl gəzib, gözəl bax..." misrasından irəli gələn ideya şairin əxlaqi-mənəvi idealıdır.

Vaqifin qoşmalarında nikbinliyin əsas mənbəyi insanlara şairin odlu məhəbbətidir. Bu məhəbbət isə öz işığını insan gözəlliyindən alır. Səmimi sevgidən doğan bu nikbinliyin əsası "vüqarlı, şux saxlayan", "mina gərdənli", "büllur bədənli", "incə belli", "pərişan zülflü", "ay qabaqlı", "lalə yanaqlı", "hindu xallı", "ixtilatı şirin", "sözü məzəli", "şəkər gülüşlü", "ellər yaraşığı" olan gözəllərdir. Real, konkret, milli xüsusiyyətlərlə verilmiş bu gözəlliyin vasitəsilə şair nikbinliyin, həyatsevərliyin qüdrətini ifadə edir. Dini mistikanın, tərkidünyalıq meyllərinin çox qüvvətli olduğu XVIII əsrin feodal üsul-idarəei şəraitində insanlarda həyat eşqi, gələcəyə inam hissi təlqin etmək böyük bacarıq və cəsarət tələb edirdi. Vaqif göstərirdi ki, real həyatı, onun saysız-hesabsız nemətlərini, dünya zövqünü riyakar din təbliğatçılarının dönə-dönə tərifləndiyi cənnətdə, behiştdə axtarmaq düzgün deyil. Vaqif bu dünyanın əzab-əziyyətini belə, axirət aləminin vəd etdiyi bütün zövqü-səfadan üstün tutur. Vaqif göstərir ki, insan güclüdür, buna görə də çətinliklərə təslim olmamalıdır. Həyatda yaşamaq nə qədər çətin olsa da, şirindir və gö-

zəldir. Ondan üz döndərmək, küskünləşmək ağılsızlıqdır.

*Toy bayramdır bu dünyanın əzabı,*
*Əqli olan ona gətirər tabı,*
*Sənintək oğlana deyil hesabı,*
*Hər şeydən eyləyib qübar ağlarsan! [5,161].*

Vaqif oxucuya başa salır ki, dünyaya, həyata inamı, etibarı itirmək olmaz. Gələcək amalı, qurub-yaratmaq eşqi, alovu sönməməlidir.

Burada əql, zəka əsas şərtdir. Hər bir əqilli insan öz xalqının, vətəninin gələcək taleyini düşünməli, dövrün haqsızlıqlarına qarşı səbir və təmkinlə, düşünülmüş şəkildə mübarizə aparmalıdır. Bu mübarizədə vətən övladlarından iradə və səbr tələb olunur.

Şairin yetişən nəslə nikbin əhval-ruhiyyə təlqin edən "Durnalar" şeiri bu baxımdan diqqətə layiqdir. Bu şeir oxucu qəlbində xoş hisslər oyadır, insanı qəm-qüssədən uzaqlaşdırır, onda həyatsevərlik, gümrahlıq hissi oyadır. Şair ömrün "fəna" olduğunu, ətrafdakı fəlakətləri, bədbəxtlikləri görə-görə həyata nikbin nəzərlə baxmağı bacarmaqla sələfləri və müasirlərindən xeyli irəli getmişdir. Bu fikri biz Vaqifin Vidadi ilə deyişməsində aydın görürük. Burada Vaqif həyatdan narazı, ümidsiz dostunu şənliyə, həyatdan zövq almağa çağıraraq deyir:

*Ey Vidadi, sənin bu puç dünyada,*
*Nə dərdin var ki, zar-zar ağlarsan?*
*Ağlamalı günün axirətdədir,*
*Hələ indi sənə nə var, ağlarsan? [5, 159].*

Vaqif burada Vidadinin simasında insanlara həyatın qədrini bilməyi, axirət haqqındakı din vaizlərinin uydurmalarına inanmamağı təbliğ edir. Bununla Vaqifi öz dövründə həyatsevərliyin, nikbinliyin ən yüksək mərhələsinə qalxdığını görürük:

*Ta cəsədin cüda olmayıb candan,*
*Bil özünü artıq sultandan, xandan,*
*Qəriblik, ayrılıq nədir ki, ondan*
*Bu qədər çəkibən azar, ağlarsan? [5, 159]*

Vaqif həyata, insanlara vurğunluq, məhəbbət təbliğ edərək göstərir ki, sağ ikən həyatın qədrini bilmək gərəkdir.

*Necə ki, dirisən, ölü deyilsən,*
*Qocalıban yaylar kimi əyilsən,*
*Padişahsan əgər özünü bilsən,*
*Neçin olub candan bezar, ağlarsan? [5, 162]*

Bütün bunlarla yanaşı, Vaqif yalan, riyakarlıq və əyrilik dünyasını rədd edərək öz nikbinliyini bütünlükdə hifz edə bilmir, həyatın ziddiyyətlərindən çıxış yolu axtarmaqda acizlik göstərir. Ümumiyyətlə, həyata bu cür baxış onun müasirlərinə də xas idi. Onlar ictimai həyatın ziddiyyətlərini göstərməyə, ictimai bəlaların köklərini dərindən təhlil etməyə müvəffəq ola bilməmişdilər. İctimai quruluşun eybəcərliklərindən bəhs etsələr də, onun hansı yolla dəyişdirilməsi fikrinə gəlməmişdilər.

M.P. Vaqifin gənc nəsildə nikbin baxış və əqidə formalaşdırmağa xidmət edən şeirlərinin tədqiqi və təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

-İnsan həyatdan zövq almalı, onun hər anından, hər dəqiqəsindən istifadə etməlidir;

-İnsan həyata qəm çəkmək üçün gəlmir, yaşamaq üçün gəlir. Ona görə də hər hansı bir çətinlik, maneə onu ruhdan salmamalı, bədbinliyə sürükləməməlidir;

-Tərkidünyalığa, pessimizmə qapılmamalı, nə qədər ki, bədəndə nəfəs var, yaşamaq, həyat nemətlərindən istifadə etmək, fəaliyyətdə olmaq zəruridir;

-İnsan bir dəfə doğulur, xoşbəxtliyi heç kəs ona hədiyyə etməyəcəkdir. Buna görə sızlayıb inləməkdənsə, özünü tox tutmaq, gələcəyə inamla baxmaq və inamla da mübarizə aparmaq gərəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı: Az.SSR EA nəşri, 1960.
2. Əlioğlu M. Məhəbbət və qəhrəmanlıq. Bakı: Yazıçı, 1979.
3. İ. İsayev, F. Rüstəmov. M.V. Vidadi, M.P. Vaqif və Q.B. Zakirin təlim-tərbiyə haqqında fikirləri. Bakı, 1994.
4. Molla Pənah Vaqif, Əsərləri. Bakı: Azərnəşr, 1960.
5. Molla Pənah Vaqif, Əsərləri. Bakı: Yazıçı, 1988.

**И.Н. Исаев**

## ИДЕЯ НАРОДНОСТИ В ТВОРЧЕСТВЕ М.П. ВАГИФА

***РЕЗЮМЕ***

Статья посвящена деятельности видного азербайджанского поэта М.П. Вагифа, в творчестве которого приоритетное место занимает идея народности и основные ее составные части патриотизм, проблемы родного языка, сила народного творчества.

В целом в творчестве маститого поэта XVIII века ярко отражены насыщенная палитра народного творчества, беспредельная любовь к природе родного края, к его флоре и фауне, изображение его красоты, богатство родного языка, насыщенность его афоризмами, значение родного языка в развитии умственных способностей обучающихся, светскость, оптимизм, глубокая вера в будущее своего народа. Все это является ярким показателем идеи народности, широкого мировоззрения и личностных морально-нравственных характеристик М.П. Вагифа.

**I.N. Isayev**

## IDEA OF NATIONALITY IN CREATIVITY OF V.P.VAGIF

***SUMMARY***

The article is devoted to the activities of outstanding Azerbaijan poet M.P. Vagif, in the creation of which the priority is the idea of the nationality and its main components patriotism, the problems of the native language, the strength of the folk art.

Generally, the rich palette of folk art, the boundless love for the nature of the native land, its flora and fauna, the image of its beauty, the richness of the native language, the saturation of its aphorisms, the significance of the native language in the development of the students’ mental faculties, the secularity, the optimism, a deep faith in the future of his people are vividly reflected in the work of the venerable poet of XVIII century. All this is a vivid indicator of the idea of a nationality, a broad outlook and personal moral and moral characteristics of M.P. Vagif.

**Redaksiyaya daxil olub**: 14.09.2017